# ORTAQ KEÇMİŞDƏN ORTAQ GƏLƏCƏYƏ

## ÇARİZMİN İŞĞALÇILIQ SİYASƏTİ ÜMUMTÜRK TARİXİ KONTEKSTİNDƏ

## Qızıl Orda və ondan törəmə tatar xanlıqları

*(tarixi-etnoqrafik oçerklər)*

⇨ Əvvəli ötən saylarda

### HƏŞTƏRXAN XANLIĞI

Həştərxan xanlığı adını Volqa və Don çaylarının Xəzərə töküldüyü yerdə salınmış qədim Hacıtərxan şəhərindən alır. XIII əsrin birinci yarısında burada olmuş ərəb səyyahı İbn Battutanın yazdığına görə, guya müsəlmanlığın bölgəyə yeni yayıldığı zamanlarda bu əraziyə bir qərib türk gəlib yerləşmiş, Həccə getdiyi üçün vergidən azad edilmiş, şəhər də bununla əlaqədar "Hacı tarxan" adlandırılmışdır ("tarxan" sözünün bir mənası da "vergidən azad olunan"dır). Artıq qeyd etdiyimiz kimi, qədim şəhər Teymurun bölgəyə yürüşləri zamanı dağıdılmış, onun yerində Timur Kutluğ tərəfindən eyni adda yeni bir şəhər salınmışdı. Həştərxan xanlığının Don çayından Noqay Ordasına qədər uzanan geniş əraziləri Xəzərin şimal-qərb sahillərini əhatə edirdi. Mühüm beynəlxalq ticarət yollarının üzərində yerləşdiyinə görə xanlıq tez bir zamanda inkişaf etmiş və daim qonşu dövlətlərin diqqətini çəkmişdir. J.P.Ru yazır: "Həştərxan xanlığı böyük çayların, nəqliyyat yollarının kəsişdiyi torpaqlarda qurulmuşdu. Bu önəmli ərazi Çindən Hindistana, oradan Avropaya gedən beynəlxalq ticarət yolunun Avropa qolunu, yaxud ən azı bu yolun Xəzər dənizinin cənubundan (yəni İrandan) deyil, şimalından keçən hissəsini əhatə edirdi". 1476-cı ildə burada səfərdə olmuş italyan diplomatı Ambroco Kontarini hər il Həştərxandan Rusiyaya elçilik göndərildiyi haqqında məlumat verir və bu heyətə tatar tacirlərin də daxil edildiyini xüsusi vurğulayır: "Onların karvanları gedəndə ipək və digər məmulatlarla, qayıdanda isə xəz, yəhər, yüyən və başqa təsərrüfat malları ilə yüklənir". Kontarininin müasiri və həmkarı İosafat Barbaro isə diqqəti duz almaq üçün Moskvadan tez-tez Həştərxana gələn ticarət gəmilərinə yönəldir.

Yuxarıda Krım xanlığının "Ulu yurd"a, yaxud "Taxt eli"nə sahib olmaq uğrunda Həştərxanla çəkişmələrindən ötəri də olsa, söz açdıq. Şübhə yoxdur ki, Həştərxan xanlığının zəif düşüb işğal edilməsində bu uzunmüddətli və üzücü münaqişənin payı az olmayıb. Onu da nəzərdən qaçırmayaq ki, Məngü Girey və xələflərinin qayəsi təkcə Böyük Ordanın bir dövlət kimi ortadan qaldırılması və "Taxt eli"nin Krıma köçürülməsi deyildi, həm də "Ulu yurdu"- bütövlükdə Volqa deltasını, o cümlədən, sözügedən ticarət-nəqliyyat arteriyalarını ələ keçirmək idi. Faktlar isbat edir ki, Böyük Ordanın paytaxtı Həştərxanı tutmaq və "Ulu xan" statusuna sahib olmaq Məngü xandan başlayaraq Gireylər xanədanı üçün Qızıl Ordanın bərpasına xidmət edən başlıca strateji məqsəd kimi dəyişməz qalmışdır. Osmanlı dövlətinin (İslam xəlifəsinin məmləketi) əvvəldən-axıra bu ixtilafa qarışmaması, Krımın hamisi olduğu halda Həştərxana münasibətdə onun tərəfini tutmaması da maraqlı məsələdir. (Osmanlı, açığı, Qızıl Ordanın bərpa olunması biyyətlərinə xüsusi maraq göstərmirdi, bu haqda ətraflı bax: "Krım xanlığı" oçerkində.) Əlimizdə Osmanlı dövləti ilə Böyük Orda, sonra isə Həştərxan xanlığı arasında münasibətləri təsdiq edən iki sənəd var. Biri 1466-cı ilin aprelində Böyük Orda xanı Mahmudun Sultan II Məhmədə məktubudur. Tarixçilərin bir çoxuna görə, məktub Osmanlı sultanının dostluq təklifinə cavab olaraq yazılıb. İkinci sənəd isə 1533-cü ildə naməlum Həştərxan xanının (İ.Zaytsevə görə, böyük ehtimalla, həmin dövrdə taxtda olmuş Ak-Kubek bin Mürtəzanın) Qanuni Sultan Süleymana yazdığı məktubdur (hazırda Topqapı sarayı arxivində saxlanılan bu məktub həm də Həştərxan xanlığına aid yeganə diplomatik sənəddir). Qıpçaq dilində yazılmış 15 sətirlik məktubda Osmanlı sultanına "qarındaş" deyə müraciət olunması və "keçmişdə bizim atalarımız arasında xoş münasibətlər və ticarət əlaqələri olub" ifadələri sözügedən kontekstdə diqqəti xüsusilə cəlb edir. Maraq doğuran məsələlərdən biri də 1490-cı ildə Sultan Bayezidin Krımla Böyük Orda arasında sülh yaratmaq istədiyi, lakin bu istəyinə çata bilməməsidir.

Qeyd edildiyi kimi, 1502-ci ildə Böyük Ordaya son zərbəni endirib "Taxt eli"ni Krıma köçürməyə müvəffəq olmasına rəğmən, Məngü Girey xan Həştərxanı ələ keçirmək xəyalını gerçəkləşdirə bilməmişdi. Görünür, elə bu səbəbdən də Moskva knyazlığı ilə Böyük Ordaya qarşı mübarizə zəminində bağladığı ittifaq anlaşmasını-bu müttəfiqliyin predmeti olan Böyük Orda artıq ortadan qaldırılsa belə!- ləğv etməyə tələsmirdi. İ.Zaytsevin yazdığına görə, Məngü xan bir neçə dəfə basqın edib şəhəri almış, lakin əldə saxlaya bilməmiş, çalıb-çapıb geri qayıtmalı olmuşdu. Məsələ burasında idi ki, Həştərxanda möhkəmlənmək üçün onu bir müddət Volqa çayından gəmilərlə mühasirədə saxlamaq lazım gəlirdi, Krım xanlığı isə Osmanlı dövləti ilə razılaşmaya əsasən, donanma saxlaya bilməzdi. Məngü xan da məhz buna görə rusların yardımına ehtiyac duyurdu. 1508-ci ildə Moskva böyük knyazı Vasiliyə məktubunda o, "mənim dostum- sənin dostun, düşmənim isə düşmənin olmalıdır",- yazır və "düşmən" deyəndə Həştərxan xanlarını- Əhməd və Mahmudun xələflərini qəsd edirdi. Vasili isə Litva ilə apardığı müharibədə Krımdan dəstək almaq niyyəti güdürdü . Özlərini sadiq müttəfiqlər kimi göstərsələr də hər biri öz oyununu oynayır, qarşı tərəfin hesabına öz problemini həll etmək istəyirdi. Nə Məngü Girey Litvaya qarşı ruslarla, nə də Vasili Həştərxan xanlığına (və ona dəstək verən noqaylara) qarşı krımlılarla birlikdə döyüşmək fikrində idi. Vəziyyət dəyişmişdi: Böyük Ordadan fərqli olaraq Həştərxan xanlığı Moskva üçün ciddi təhlükə kəsb etmirdi. Digər tərəfdən, sonrakı hadisələrdən də göründüyü kimi, Moskvanın Həştərxanla bağlı əsl niyyəti başqa idi...

Vasilidən istədiyini ala bilməyəcəyini başa düşən Məngü Girey 1509-cu ildə oğlu və vəliəhdi Məhəmməd Gireyin başçılığı altında 250 minlik qoşununu Həştərxan üzərinə göndərdi. Elə həmin il də Moskvaya öz qələbə müjdəsini çatdırmağa tələsdi. Həqiqətdə isə şəhər hələ də alınmamışdı. Bu minvalla Məngü xan 1515-ci ildə dünyadan köçənəcən Həştərxanı Krım xanlığına qata bilmədi. Xələfi Məhəmməd Girey (1519-1523) onun arzusunu tək ata vəsiyyəti kimi yox, həm də dəyişməz missiya, siyasi strategiya kimi qəbul etdi. O dövrdə qayda belə idi: siyasətdə varislik hakimiyyətin ən mühüm şərti kimi toxunulmaz saxlanırdı. Məhəmməd Girey də atasının dostlarını öz dostu, düşmənlərini, rəqiblərini isə öz düşməni və rəqibi bilirdi. Hətta Rusiya ilə müttəfiqlik sazişinə də dəyməmişdi.

Məhəmməd Girey, xan taxtına keçən kimi Həştərxan üzərinə yürüşə çıxdı, şəhəri mühasirəyə aldı. Həştərxan xanı Canıbəy bin Mahmud Noqay Ordasına qaçmağa məcbur oldu. Amma şəhər yenə alınmadı və bu uğursuzluq fonunda Moskvanın "sürüşkən" mövqeyi Məhəmməd xanı bərk qəzəbləndirdi. Doğrudur, bəzi mənbələrdə Krım xanlığı ilə Moskva Rusu arasında soyuqlaşmanın artıq 1517-ci ildən hiss olunduğu bildirilir. Amma 1518-ci ildə Məhəmməd Gireyin oğlu Bahadırla birgə Həştərxana növbəti yürüş üçün Vasilidən yardım istədiyi məlumdur. Görünür, ittifaq hələ rəsmən qüvvəsini itirməsə də, tərəflər arasında sövdələşmə yenə baş tutmayıb. Çünki Vasili müttəfiqinin hərbi yardım istəyinə bu dəfə də əməl etmir. Beləliklə, Krım xanlığının Moskva siyasətində kəskin dönüşü yalnız 20-ci illərə doğru aydın konturlar almağa başlayır. 1521-ci ildə isə artıq Məhəmməd xan oğlu Sahib Gireylə birlikdə Moskva səfərinə çıxır (Zaytsevin fikrincə, bu yürüş də Həştərxan məsələsi ilə bağlı idi).

Bu zaman noqay mirzələrindən Seyidəhməd bin Musa (rus mənbələrində "Şiydiak") Həştərxanda hakimiyyəti ələ almış və bu xanlıqda "noqay dövrü" başlamışdı. Həmin ilin sonlarına doğru qarşılıqlı razılıq əsasında taxta keçən Hüseyn bin Mahmud noqaylardan asılılığı qəbul etmişdi. Vur-tut iki il sürən "noqay dövrü" Həştərxan xanlığı tarixində, xüsusilə onun Krım xanlığı ilə münasibətlərində mühüm hadisələrlə zəngindir. Xoşagəlməz ixtilaflar silsiləsi isə Məhəmməd Gireyin Moskva yürüşündən başlayır. Belə ki, həm xanın, həm də vəliəhdin eyni vaxtda yoxluğunu fürsət bilən Noqay-Həştərxan alyansı Krıma soxularaq çoxlu əsir alır, malqaranı qovub aparır, qarət olunan krımlılar isə canlarını götürüb Kəfəyə qaçırlar (Kəfə Osmanlı valisinin iqamətgahı idi). Yürüşdən qayıdan Məhəmməd Girey xan, əlbəttə ki, bunun əvəzini çıxmalı idi. O, Həştərxanı cəzalandırmaq üçün vaxt itirmədən hazırlığa başlayır və "Nikonov salnaməsi"ndə deyildiyinə görə 1523-cü ildə (bəzi mənbələrdə 1522-ci il göstərilir) oğlanları və qardaşları ilə birlikdə Həştərxana hücum edib şəhəri ələ keçirir. Lakin XIX əsrin tanınmış müəllifləri-kazanlı Rizaəddin Fəxrəddin və Şihabəddin Mərcaninin yazdıqlarına, eləcə də əslən Krımdan olan Osmanlı tarixçisi Halim Gireyin məşhur "Gülbini-xanan, yaxud Krım tarixi" əsərində göstərildiyinə görə, bu yürüş Krım üçün əsl fəlakətlə başa çatır.

Məhəmməd xan geri dönərkən noqaylar tərəfindən öldürülür (Həştərxanda dəfn edilib), şahzadələrin dördü isə əsir alınır. "Postnikov salnaməsi"ndə bildirildiyi kimi, yürüş zamanı Krım ordusu həm də böyük itkilər (bəzi mənbələrdə 130 min nəfər) verir. Üstəlik Həştərxan və noqay döyüşçüləri krımlıları Baxçasaraya qədər qovaraq, şəhərin 10 verstliyində düşərgə salır, iki həftə soyğunçuluq edib, xeyli qənimət ələ keçirirlər. Diqqət yetirilməli daha bir xüsus Krım xanlığının sərhəddində gedən döyüşlər zamanı Kəfədəki yeniçəri qüvvələrinin məsələyə müdaxilə etməməsidir ki, bu da Osmanlı dövlətinin türk-tatar xanlıqları arasında ziddiyyətlərə qarışmadığı fikrini bir daha təsdiqləyir.

1523-cü il fəlakətindən sonra xanlıqlar arasında nifaq bir müddət səngiyir, daha doğrusu, Krım müdafiə mövqeyinə keçir. Bir çox tarixçilərə rəğmən, ehtimal edə bilərik ki, bu, Krım və Həştərxan xanlıqlarının münasibətində bir dönüş nöqtəsidir. Doğrudur, münaqişə və toqquşmalar sonralar da baş verir, amma artıq lokal basqın mahiyyəti daşıyır, xüsusilə Krım tərəfindən əvvəlki təşəbbüskarlıq, aqressivlik, məqsədyönlülük və sabitqədəmlik müşahidə olunmur (Həştərxan ruslar tərəfindən işğal ediləndən sonra Krım xanlarının onun azadlığı uğrunda mabarizəsinə gəlincə, aşağıda görəcəyimiz kimi, bu, artıq tamam başqa siyasi gündəmin məsələsidir). Mübarizənin ideoloji əsası (Qızıl Ordanın reinkarnasiyası, yenidən dirçəldilməsi), demək olar, aradan götürülür, ixtilafların katalizatoru rolunu isə artıq Həştərxan-Noqay koalisiyası, əksər hallarda da qarışıq soyğunçu dəstələr oynamağa başlayır. Misal üçün, Sahib Gireyin 1546-cı il Həştərxana hücum etdiyi tarixdən məlumdur. Tarixçi Rəmmal Xoca bu insidentə səbəb kimi Həştərxan xanı Yağmurcunun (rus salnamələrində onun adı gah "Yamqurçi", gah "Jambırşı", bəzi Azərbaycan qaynaqlarında isə "Yomğurçay" kimi verilir) Kazandan Krıma gedən ticarət karvanını ələ keçirməsini və tacirlərin Sahib xana şikayət etmələrini göstərir. Bu hücum Əli Mirzənin başçılıq etdiyi noqay ordusuna cavab yürüşü üçün əsas vermiş, lakin krımlılar onları mühasirəyə salıb məğlub etmişdilər. Analoji toqquşmalar sonralar da olmuşdu. Ümumiyyətlə, bütün qarışıq vaxtlarda olduğu kimi, o dövrdə də Volqa axarları quldur dəstələrinin məskəninə çevrilmişdi. Soyğunçular karvanları yağmalayır, tacirlərin mallarını əllərindən alırdılar. Bunların arasında kazaklar da, noqaylar və həştərxanlılar da olurdu. Amma orası da var ki, noqaylılar Krım tacirlərinə qarşı xüsusi aqressivlik göstərir, həştərxanlıların köhnə düşmənçilik duyğularını qızışdırır, onları qisasçılığa sövq edirdilər.

Ümumiyyətlə, həştərxanlılarla noqayların Krım xanlığına qarşı uzunmüddətli müttəfiqlik münasibətləri tarixşünaslıqda gah vassal asılılığı, gah da qohumluq, qonşuluq və iqtisadi maraqlar zəminində şərh olunur (ən azı, XVI əsrin ortalarına qədər). Bizə görə, bunun "noqay fenomeni" ilə izah edilməsi daha doğrudur və aşağıda Noqay uruqları haqqında oçerkdə bu fenomen üzərində ətraflı dayanacağıq. Burada isə bəzi ənənəvi qənaətləri yada salmaq, zənn edirik, yersiz olmaz (əslində bu fikirlər "noqay fenomeni"ni təkzib də etmir). Yekdil rəylərdən biri budur ki, Qızıl Ordadan törəmə dövlətlərin hamısında əhali bu və ya başqa dərəcədə eyni qəbilə və tayfalara mənsub idi. L.Ş.Arslanova XV əsr mənbələrinin araşdırılması nəticəsində haqlı olaraq yazır ki: "biz müxtəlif siyasi və dövlət təşəkküllərinə daxil olan bir neçə qıpçaq mənşəli qohum və köçəri türk etnosu ilə qarşılaşırıq". Döyüşkənliyi və düşmənə xüsusi amansızlığı ilə səciyyələndirilən noqaylar da Kazan, Krım, Sibir, Qazax, eləcə də Həştərxan uluslarında yaşayan həmin köklü tayfa birliklərindən biri idi. Tarixçilərin fikrincə, Həştərxanda noqayların sayı xüsusilə çox olub. Krımda isə Məhəmməd Gireyin dövründə bir hissəsi Kubana köçürüldükdən sonra belə onlar əhalinin böyük əksəriyyətini təşkil edirdilər. Bütün türklərdə olduğu kimi, qıpçaq obalarında da etnik qohumluğun, nəsil-tirə və sülalə eyniliyinin, nikah və şəxsi yaxınlıq əlaqələrinin yüksək qiymətləndirildiyi öz-özlüyündə aydındır. Kazan xanlığından danışarkən bunun bariz nümunələri xatırladıldı. Əlavə edək ki, Kazanın noqaylarla müttəfiqliyində Məhəmməd Əmin xanın Musa Mirzənin qızı ilə evlənməsi az rol oynamamışdı (sonradan noqay əmirlərindən Yusuf Mirzənin və oğlanlarının Kazan xanlığının müstəqillik mübarizəsində yaxından iştirak etmələri də əsasən, onun qızı Suyumbikənin Kazan məlikəsi olması ilə bağlı idi). "Xolmoqor salnaməsi"ndə 1505-ci ildə Kazanda əsir götürülən ruslardan böyük bir qisminin Məhəmməd Əmin xan tərəfindən qənimət kimi Həştərxana və Noqay uruğuna göndərilməsi haqqında məlumat da, yəqin ki, dolayısı ilə bu qohumluq münasibətlərinə işarə edir. Habelə mütəxəssislərin Kazanin azad edilməsi məqsədi ilə yaradılan antirus koalisiyasında Həştərxanın iştirakına böyük ehtimal vermələri eyni motivlə bağlı olmalıdır. Sovet şərqşünası Məhəmmədcan Safarqaliyevin misal gətirdiyi bir fakt da həmin qənaətin təsbit edilməsi üçün maraq doğurur. M.Safarqaliyevin yazdığına görə, hələ 1530-cu illərdə Həştərxanda hakimiyyət çevrilişi edən Dərviş Əli bin Şeyx Heydər tezliklə taxtdan salınmış və ana qohumu olan noqaylı İsmayıl Mirzəyə pənah aparmış, oradan da Moskvaya qaçmışdır (İ.Zaytsev bu hadisəni 1537-ci ilə aid edir). Ümumiyyətlə, köçəri noqayların bu və digər səbəblər üzündən müharibələr aparan, məğlubiyyətə uğradıqda isə düşmənlərindən gizlənmək məcburiyyətində qalan qohum tayfaların təmsilçilərinə yardım göstərmələri az qala bir tarixi qanunauyğunluq halını almışdır.

Tarixçilərin başqa bir qismi Həştərxan xanlığı-Noqay Ordası müttəfiqliyinin əsası kimi ərazi yaxınlığına istinad edir. İ.Zaytsevin təbirincə desək, "İsmayılın (noqay kalqayı, daha sonra əmiri-N.M.) Həştərxandakı siyasi vəziyyətə maraq göstərməsində təəccüblü bir şey yoxdur. 1551-ci ildə onun qışlaq yerləri bu şəhərin cəmi 10 verstliyində idi". Bəzi mənbələr hətta Həştərxan xanlığının yaranmasını belə Yedigeyin başçılıq etdiyi manqıt konfederasiyası ilə (tarixçilər arasında manqıtları noqaylarla eyniləşdirənlər də, noqay oymağının ana qəbiləsi hesab edənlər çoxdur) əlaqələndirir. Gördüyümüz kimi, Noqay Ordası ilə Həştərxan xanlığı arasında müttəfiqlik münasibətləri klassik süzeren-vassal tipologiyası hüdudlarına sığmır, bu hüdudları aşır, daha geniş və daha dərin tarixi (etnik, coğrafi, siyasi və s.) köklərə dayanır. Digər tərəfdən onu da əlavə etmədən keçə bilmərik ki, Rusiya amilinin güclənməsi bölgədə ənənəvi münasibətlər sisteminə bütövlükdə təsir göstərdiyi kimi, Noqay-Həştərxan siyasi ittifaqına və bu koalisiya ilə Krım xanlığı arasında əlaqələrə də yeni çalarlar verirdi.

N.MUSTAFA

⇨ Davamı növbəti sayda